**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№** 3-44/3-9-2/2025

**Bakı şəhəri** “02” aprel **2025-ci il**

**Karantin tətbiq edilən zərərli orqanizm aşkar edilmiş məhsul idxalına müvəqqəti qadağanın tətbiq edilməsi haqqında**

Ölkə ərazisinə başqa dövlətlərdən zərərli orqanizmlərin daxil olmasının və yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra - Agentlik) regional bölmələri tərəfindən İran İslam Respublikasından idxal edilən pomidor məhsuluna fitosanitar baxış keçirilmiş və götürülən nümunələr Agentliyin tabeliyində Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasına təqdim edilmişdir.

Aparılmış ekspertiza nəticələrinə əsasən, İran İslam Respublikasından idxal olunan pomidor məhsulunun 3 partiyasında karantin tətbiq edilən zərərli orqanizm aşkar edilmişdir. Hər bir məhsul partiyasında pomidor meyvələrinin qonur qırışıqlıq virusu (Tomato brown rugose fruit virus) aşkar edilmişdir. Aşkarlanan uyğunsuzluqlardan 2-si “Hadi Porreza” adlı İran İslam Respublikasından olan istehsalçıya məxsusdur.

Bitki və bitkiçilik məhsullarında zərərli orqanizmlərin kütləvi yayılmasının qarşısının alınmasına, xəstəliklərin aradan qaldırılmasına, məhsul itkisinə yol verilməməsinə, ətraf mühitin və əhalinin sağlamlığının qorunmasına yönəldilmiş bitki mühafizəsi tədbirlərinin həyata keçirilməsi məqsədilə, "Fitosanitar nəzarəti haqqında" 2006-cı il 26 may tarixli 102-IIIQ nömrəli Azərbaycan Respublikası Qanununun 3.1.2-ci və 3.1.4-cü maddələrinə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 29 dekabr tarixli 280 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasına gətirilmiş və respublikadan aparılması nəzərdə tutulan karantin nəzarətində olan materiallara fitosanitar karantin baxışının keçirilməsi və ekspertizanın aparılması qaydaları”nın 3.3-cü bəndinə və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan

Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-13-cü və 3.03.33-16-cı yarımbəndlərinə uyğun olaraq

**Qərara alıram:**

**1.** İran İslam Respublikasında "Hadi Porreza" adlı istehsalçıya məxsus pomidor məhsulunun Azərbaycan Respublikasına idxalına 2025-ci il 3 aprel tarixindən müvəqqəti qadağa qoyulsun.

**2.** 2025-ci il 3 aprel tarixinə qədər İran İslam Respublikasında sertifikatlaşdırılmış pomidor məhsuluna aid yük partiyalarının laborator müayinələrə cəlb edilməklə idxalına icazə verilsin.

**3.** Bu Qərarın surətinin Agentliyin aidiyyəti regional bölmələrinin İdxal və ixraca nəzarət sektorlarına, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə və İran İslam Respublikasından Azərbaycana pomidor idxal edən fiziki və hüquqi şəxslərə göndərilməsi Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi tərəfindən, İran İslam Respublikasının Milli Bitki Mühafizəsi Təşkilatının məlumatlandırılması isə Bitki sağlamlığı və bioloji təhlükəsizlik şöbəsi tərəfindən təmin edilsin.

**Bitki sağlamlığı və bioloji təhlükəsizlik**
**şöbəsinin müdiri v.m.i.e müdir müavini,**
**Respublikanın baş dövlət fitosanitar müfəttişi** **Cavidan Quliyev**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi * Food Safety Agency of the Republic of Azerbaijan
Baş Dövlət Fitosanitar Müfəttişi
Chief State Phytosanitary Officer